

**DƏMİR ÇEŞMƏLİ**
**AYB-üzvü**

## QARA-AĞDI XATİRƏLƏR

Keçib heydən-heyim çatmaz,
Nə gücüm nə səyim çatmaz,
Mən ki mənəm nəyim çatmaz?
Çatıldım çatımlı yerə.

Qoruq yerin örüş yerim,
Gözdən-gözə görüş yerim,
Ayaqüstü giriş yerim,
Yatıldım yatımlı yerə.

Boş qaldı boşalan yerin,
Görünmür gözə dəyərin.
Canımdan çıxmaz qəhərin,
Satıldım satımlı yerə.

Yadam köhnə yaddaş kimi,
Unuduldum çaş-baş kimi,
Nə tez atdın nimdaş kimi,
Atıldım atımlı yerə.

Göymü doğdu xatirələr,
Yerə yağdı xatirələr,
Qara-ağdı xatirələr,
Qatıldım qatımlı yerə.

## ELİNAYA

### ELEGİYA

Dizlərim daş çapığı,
Daş ömrü yaşayıram.
Halıma daşlar ağlayır,
Gözünün yaşı qup-quru.
Əl də çatmır kimsə,
Kimlər məndən qaçır.
Yoxuşu eniş görmür,
Eniş də öz içindədir.
Gözümdə zülmət bitib,
Nuru qeybə çəkilib.
Allaha qısılmağa ,
Mələkləri səslədim.
Xəcalətmi çəkmişdi,
Cınqırı da çıxmadı.
Çiynimə də qonmadı.
Əl də açdım əlsizə,
Ovcunu da açmadı.
Axtaran axtarmasın,
Tapa bilməz yerimi.
Üfüqdən o yanayam...
Əzabım bağışlasın,
Qoy unudanlar bilsin.
Xatırlamağa dəyər.
Hələ ki vaxtım yoxdu,
Elinaya yas tuturam.

## ÖZÜ OLMURAM

Uçuram göy quşun göy qanadında,
Yadına düşürəm burda yadın da.
Unudub o üzü dönük qadında,
Üzündə oluram, üzü olmuram.

Göyə tuşlanıram qanad açmağa,
Göyün qucağında göyə uçmağa.
Gedirəm özümdən özüm qaçmağa,
İzində oluram, izi olmuram.

Enişdən enirəm yoxuş qısqanır,
Yoxuşu yolumda çıxış qısqanır,
Allah verən payı qaxış qısqanır,
Gözündə oluram, gözü olmuram.

Unudur adımı adam yanında,
Oduna yandırır, odum yanında,
Olanı özünə dedim yanında.
Közündə oluram,közü olmuram.
Başına dönürəm baş-baş olanda,
Sevirəm sevgimiz sirdaş olanda,
Yoluyla yolumuz yoldaş olanda,
Özündə oluram, özü olmuram.

## BUCAQLAR MƏNİ

Öz anam bilirdim anamnan sonra,
Oduna yanardım yanannan sonra,
Gümanım varıydı gümannan sonra,
Götürmür qucağa qucaqlar məni.

Döndüyüm döngəni dönürəm yenə,
Gəldiyim yer göydü, enirəm yenə,
Qorunda qorlanıb sönürəm yenə,
Küləndə üşüdür ocaqlar məni.

Yaxşıdan yaxşıydım yamanım yaxşı,
Şübhədən uzaqdım gümanım yaxşı,
Zirvədə olmağa dumanım yaxşı,
Bucaqdan buraxmır bucaqlar məni.

## EHTİYACIM VAR

Üzümə gəlmədin o vaxtdan bəri,
Sən hardan biləsən tac-taxtdan bəri,
Şanslı olan şans da var baxtdan bəri,
Ölçümnən ölçənə ehtiyacım var.

Qazanın qaynayır buxarında mən,
Sel sözündən qaçır axarında mən,
Sən çıxan dağların baxarında mən,
Köçümnən köçənə ehtiyacım var.

Dərə yolu ayrı dərədən keçir,
Ovçu ov sarıdan bərədən keçir,
Bəridən keçənlər bərədən keçir.
İçimnən içənə ehtiyacım var.

Düzümə düzlənmir əyəni qalır,
Ağacı əlində döyəni qalır,
Dediyini deyir deyəni qalır.
Biçimnən biçənə ehtiyacım var.

Ədalət.-2019.-8 oktyabr.-S.8.